# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Fevralın 8-də təhsil naziri Ceyhun Bayramov Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzində Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl rayonlarının və Şirvan şəhərinin sakinlərini qəbul edib.

Qəbulda Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl rayonlarında və Şirvan şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, işə bərpaolunma, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər.

***

Mədəniyyət naziri Əbülfəs Qarayev fevralın 8-də Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbulda Tovuz, Ağstafa, Qazax, Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayonlarından vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbulda müraciətlərin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

***

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə fevralın 8-də Hacıqabulda vətəndaşlarla görüşüb.

Hacıqabulla yanaşı, Şirvan şəhər, Sabirabad və Saatlı rayonlarının sakinlərinin də iştirak etdiyi görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

***

Gənclər və idman naziri Azad Rəhimov fevralın 8-də Şirvan şəhərindəki Gənclər evində Şirvan, Hacıqabul, Neftçala, Saatlı, Sabirabad, Salyan şəhər və rayonlarının sakinlərini qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, ümumilikdə 20-dən çox sakinin iştirak etdiyi qəbulda müraciətlər əsasən gənclər, idman, tikinti sahələri və məşğulluqla bağlı olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

***AZƏRTAC***

Azərbaycan.- 2019.- 9 fevral.- S.5.